

## Gülnaz Kutiyeva

*(Başqırdıstan)*

Gülnaz Kutiyeva müasir Başqırd ədəbiyyatının tanınmış nümayəndələrindən biri, "Başqırdısdan qızı" jurnalının baş redaktorudur.

*"Azərbaycan dəftəri"ndən*

**GÖZƏL NAFTALAN**

Ona unudulmaz gözəllik verər
Əyninə biçilmiş yaşıl əbası.
Dünəndən bu günə can dərmanıdı
Bizə gətirdiyi salam-duası.
Ağır yollar keçən yorğun dəvəsi
Böyük bir çuxura yıxılıb qalar.
Sanki özü üçün qəbir axtarar,
Uzaqdan bu yeri o nişan alar.
Sən demə, seçdiyi bu qəbir yeri
Ölünü dirildən sehrli yermiş.
Çox uzaq keçmişdə bir loğman kimi
Hər cür xəstələrə şəfa verirmiş.

Axsaya-axsaya bura gələnlər
Atıb çəliyini qayıdıb gedər.
Yerin qaymağında üzər bir qədər,
Yüz ilin xəstəsi oyanıb gedər.

Naftalan – torpağın nur çeşməsitək,
Gözə işıq verər, ürəyə təpər.
Yaşamaq eşqiylə yanan xəstəni
Sağaldar təpədən dırnağa qədər.

Naftalan – hamıya həyat bəxş edər
Şəfqətli üzüylə hey gülə-gülə.
Yalnız bir ölümə çarəsi olmaz,
Ona da qoy ümid sönməsin hələ.

**GƏNCƏ-GƏNCƏVİ**

Şairləri ucalara qaldıran
Belə gözəl torpaq hardasa varmı?
Səpirəm başına bu gün çiçək tək,
Sənə bəslədiyim sayğılarımı.

Salam gətirmişəm sənə uzaqdan,
Ey böyük şairim – Gəncəvi dədə.
Qəlbinə yatırmı, ordakı həyat?
Necə günün keçir, o məqbərədə?

Nurunmu könlümü çəkib gətirir,
Yoxsa ağlım çaşır, özüm gəlirəm?
Bir vaxt sən gəzdiyin bu havalarda
Mən indi gül kimi nəfəs dərirəm.

Şairə yaraşan ciddiliyin də
Sehrdir üzündən sözünə kimi.
Gəzmir əldən-ələ əlyazmaların,
Saxlanır bir sirli xəzinə kimi.

Sözün ürəkləri fəth eləməyə
Bir daha uçacaq haçan göylərə?
Mübarək gecənin işığı kimi
Halal süfrəsini açar göylərə?

Əbədi dünyaya qovuşan ruhun,
Qaldı bu dünyada nuru, şairim.
Sən təmiz qəlbisən Yer kürəsinin,
Qoru bu saflığı, qoru, şairim!

**NƏSİMİ**

Odlu gözlərindən ruhum titrədi,
Qarşımda dayanan Allahmı, görən?
Hər kəsin içində o Nur var ikən,
Məgər Allah olmaq günahmı, görən?

– Heç kəs Allah kimi pak ola bilməz,
Doğulmaq özü də günah işidir.
Hamımız Allahın bəndələriyik,
Ona şərik çıxmaq bir ah işidir.

Kim deyib, mən haqqam, uca Allaham?
Yeddi qat dərisi soyulub gedib.
Xalqın qarşısında edam olunub,
Dəhşətlə gözləri oyulub gedib.

Ey mənim şairim, ulum, ulusum,
Bu gün də ruh kimi uçur sözlərin.
Qəlbimi alsa da, əsrin sədası,
Üzür yaş içində yenə gözlərim.

Neçə yüz illərin içindən keçən
Sözlərin qoruyur "şair suçunu ".
İndi də artırır söz qüdrətini,
Ruhun uçuşunu – şair gücünü.

## GÖYGÖL

Büllur bir damlatək ana torpağın,
Düşüb yanağına ilişib qalıb.
Desəm, yalan olmaz, həyat bu yeri
Yalnız Göygöl üçün çevrəyə alıb.

Təmiz göz yaşıyla dolu kasatək
Gümüş güzgü tutub buludlu göyə.
Uzadıb əlini içər bir azdan
Qəlbinin odunu söndürsün deyə.

Əks edər şəklini ağ buludların,
Mərmər sinəsini yarar şüalar.
Göz yaşı içində gülər gözləri,
Gülər əbədiyə, gülər şu anlar.

Mən isə  Göygöldən qalxıb uçaram,
Uçaram quş kimi Günəşə sarı.
Göy üzü quşları dartdığı kimi
Yavaşca enərəm mən də dağları.

Göygöl – Yer üzünün göz yaşı kimi
Həm bir az istidir, həm də sərindir.
Çəkər parıltısı bütün dünyanı,
Yəqin göz yaşının duzu şirindir.

## QIZ QALASI

Dayanıb dünyada bir sual kimi,
Altı rəqəmidir, doqquzmu yoxsa?
Bu kimin ağlına gəlib, görəsən,
Neçənci illərdə yetişib ərsə?

Bəlkə, işarədir anlayanlara?
Dünya hesablayır hər keçən dəmi.
Xəzərə göz qoyub baxır mayaktək,
Vətənin əyilməz qüruru kimi.

İllər əzizləyib divarlarını,
Gəlib ürəyindən keçib nəsillər.
Yenə əyilməyib bir qala kimi
Başının üstündən əssə də yellər.

Bəlkə, göy üzünün möcüzəsidi,
Yanağı solmayan bu qız-qalaça.
Sirr kimi qəfildən gəlib dünyaya,
Yenə də sirr kimi o qız qalacaq.

## MARALGÖL

Maralgölün fikri nədir, görəsən?
Susur sual kimi bir cüt qu quşu.
Halını soruşub öyrənim deyə,
Axıram su kimi mən ona qarşı.

Sakitcə düşünür Maralgöl gölü,
Toxunsan, qəlbinə coşar bir anda.
Qovar dalğaları hirsli, əsəbi,
Rəqsə dəvət edər kefi duranda.

Bu gölün bu gözəl sakitliyini
Adam qucağına almaq istəyir.
Həmişə, hər yerdə elə onuntək,
Sakit, düşüncəli olmaq istəyir.



*Başqırd poeziyasını təqdim*
*və tərcümə etdi:*
**Baloğlan Cəlil**